

Xəyalə Sevil

## YƏQİN HEÇ XƏBƏRİN YOXDU

Hönkürüb susmaq olur ha,
Mən indi elə susuram.
Yəqin heç xəbərin yoxdu,
Eh! Sənə şeir yazıram.

Deyim qara həsrəti var,
Sarı qızın, lüzum yoxdu.
Yerdə səninlə həyatım,
Göydə də ulduzum yoxdu.

Uzaqdan baxıram sənə,
Nə xoş seyirimsən mənim.
Nə doğmamsan, nə yadımsan,
İndi şeirimsən mənim.

## SƏN DƏ GÖRDÜN ÖLÜMÜNÜ

Kişilər sevdiyi qadınların
Gözlərindən düşəndə ölürmüş.
Sən də gördün ölümünü,
Mən də gördüm.
Sən yadıma düşəndə
Gülümsəyən güzgülər utandı.
Qollarım çiyinlərimdən yıxıldı,
Yollarım ayağıma uzandı.
Mən bircə sevəndə zəif oluram.
Əgər indi sevmirəmsə,
Məndən güclüsü yoxdu,
Səndən suçlusu yoxdu...
Özümü xoşbəxt etməyə
Elə özüm də bəsəm.
Yalvartma gözlərini,
Nifrətimi bir dinləsən...
Sən də gördün ölümünü,
Mən də gördüm.

## SAAT NEÇƏDƏ DARIXAQ?

Görüşə bilmərik sənlə,
Taleyin gözündən qıraq.
Heç olmasa vaxt təyin et,
Saat neçədə darıxaq?

Eyni cür, eyni saatda,
Görüş kimi darıxaq.
Qayğı kimi, sığal kimi,
Öpüş kimi darıxaq.

Xəyalına gəlin gəlim,
Utandıraq ayrılığı.
Mənə gözünlə söz göndər,
Darıxaqmı axşam çağı?

## QÜRBƏT ÜRƏKDƏYƏM İNDİ

Hər şey birdən-birə olmur ki.
Ağlaya-ağlaya
Ağlamamağı öyrənir insan,
Qorxa-qorxa qorxmamağı,
Sevə-sevə unutmağı,
Və susmağı!

Ürək çatışmazlığından
Əziyyət çəkənləri
Başa düşürəm indi.
Ürəyin çatışmadığı bədənlərin
Ağrısı dərin olur,
Yatağı sərin olur.

Bilmək istəsən,
Qürbət ürəkdəyəm indi,
Darıxıram vətən üçün...

## QADINI BELƏ SEVMƏZLƏR

Nə deyirəm, bilirsən?
Sən gözümdən düşəndə
Əllərimi tutdum
Gözümün altına.
Amma yenə yıxıldın.
Bircə damcı yaş olub
Yanağıma dağıldın.

Nə deyirəm, bilirsən?
Sən məni öldürəndən
Sonra sağ qaldım.
Çəkdin qara gözlərini üstümdən,
Ağ qaldım.
Hamılaşdın.
Gözlərimi açdın, nə deyirəm...

Xəyallarım edam körpüsü,
Həsrətin
Gözlərimdən tutmağı unudub.
Eh... Həvəsim də yoxdu
Səni 40 gün ağlamağa...
Elə tərsliyim tutub,
Sevmərəm,
Sevmərəm daha.
... Qadını belə sevməzlər.

## MƏNƏ XOŞBƏXTLİK ŞƏKLİ ÇƏK

Gözlərimdə yaz havası,
Dayan, ümidimi dinlə.
Gəlincik duyğularım var,
Uşaqlaşım qoy səninlə.

Ağacdan düşən yarpağa
Çiynimizdə yer salaq.
Sevək, elə sevək ki,
Sevgimizdən dərs alaq.

Əllərim bəyaz kəpənək,
Uçsun, dolansın boynuna.
Mənə xoşbəxtlik şəkli çək,
Götürüm, geyim əynimə.

## MƏNDƏN ÜZR İSTƏMƏ

Hərdən bir tikə qəm verib
Dolandırıram xatirələrini.
Hərdən...
Hərdən də
Ürəyimin yanğınında
Yandırıram xatirələrini.

Mən səndən sonra
Körpüdən yıxılmağa
Həvəslənmiş uşaq.
Sən məndən sonra necəsən?...
Heç kim belə getməmişdi,
Gedişinlə də bircəsən.

Səni ulduz bilirdim,
Göyün üzündən axdın.
Məndən üzr istəmə,
Sən mənə neynədin ki?
Təkcə...
Qaranlıqda buraxdın.

## MƏN SƏNİ UNUTMAMIŞAM

Mən səni unutmamışam,
Sən də məni unutma.
Görsən yıxılıram,
Ürəyimdən tut,
Əllərimdən tutma.

Səndən bircə səsin qaldı,
Onu da külək dağıdır.
Sənsizliyim göz dağı,
Təkliyim ürək dağıdır.

Həvəsin oldum sənin,
Nəfəsin olaydım kaş.
Ağlamıram...
Gözlərimdə arzularım əriyir,
Tükənir yavaş-yavaş.

## MƏHƏBBƏT ÖZÜ ÖLMÜR...

Sən gedəndə
Elə bildim hamı getdi...
Darıxmağın məsafəsi yoxmuş, bildim,
Bircə addım ayrılmamış
Darıxmağa başlayanda.
Əllərim gözlərimin
Ən xəlvət yeri oldu.
Bərk-bərk saxladım gedişini gözümdə,
Bərk-bərk gizlədim.
Tez-tez yoxladım,
Tez-tez əzizlədim.
İçimdəki
Ağlağan uşaqlığımı
Kiridə bilməyəndə
Susdum,
Küsdüm,
Bezdim.
Və gördüm ki,
Məhəbbət özü ölmür,
Məhəbbəti öldürürlər.

## GECƏ SAAT ON İKİ

Axşam çağı küçələr
Tərk edilmək üçündü.
Üşüyən oturacaqlar
Əyninə xəzan geyir.
Göy üzündə yarım ay
Yarım gecə lampası.
Küləklər yelləncəkdə...
Aya, ulduza dəyir.
Ayrılığın bir ucu
Bu sarı qıza dəyir.
Sən də getdin, əzizim,
Eh! Elə onlar kimi.
Elə küçə kimiyəm,
Yıxılan yollar kimi.
Əllərim çətir olmur,
Yanağımı su aparır.
İndi sənin xəyalını
O aparır, bu aparır.
Və belə...
Oyunun sonu.
Gecə saat on iki.
Yeni günümdə olma,
İtirdi bu sevgi.

## DESƏM Kİ, DARIXIRAM...

Desəm ki, darıxıram,
Ayıb olmaz ki?
Bu gün də gəlmirəm sənə,
Qayıb olmaz ki?

Keçib gedən qatarım,
Gecikmişik... sus, bitsin.
İndi mən taleyimdən,
Sən də məndən küs, bitsin.

Məni sənin yadına
Nə salacaq bilmirəm.
Aramızda heç nə yoxdu,
Xəyallardan savayı.
Hərdən bir baxış göndər,
Bir azca təsəllim olsun.
Elə yaşanmalı yerdi
Gözlərinin sarayı.

## DƏRDİ DƏ SEVƏSƏN GƏRƏK

Göz yaşımı
Gözlərimin arasında paylayıram.
Biri sənin, biri sənin,
Eyni boyda ağlayın.
Dərdi də sevəsən gərək,
Əvvəlcə qucaqlayın.
Yanağımdan yaş uzanır yol kimi,
Baxıram itirdiklərimin arxasınca...
Ahh! Həyat,
Adamlarından soyudum,
Çəkildim qırağa.
Yaxşı ki, öz çiynim qalıb,
Başımı söykəyib ağlamağa.

